*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 3* *ISSN: 2663-4406*
*Səhifə: 134-139* *E-ISSN: 2709-2699*
*http://dx.doi.org/10.59849/2663-4406.2024.3.134*

# Məhəmməd Füzulinin Süruri qəzəlinə nəzirəsi

**Şəfəq Maksudova**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: shafaqtagiyeva@mail.ru

**Annotasiya.** XVI əsrdə yazıb-yaratmış Azərbaycan şairlərindən biri də Süruridir. O, hürufi şairi olmuş, öz yaradıcılığında, əsasən, Nəsimi irsindən bəhrələnmişdir. Süruri, eyni zamanda bir çox şairlərin yaradıcılığına da təsir göstərmişdir. Bu baxımdan klassik Azərbaycan poeziyasının böyük şairi Məhəmməd Füzuli yaradıcılığı diqqəti cəlb edir. Dahi şair ədəbi fəaliyyətinin ilk dönəmlərində Süruri poeziyasına müraciət etmiş və onun bir sıra qəzəllərinə nəzirə yazmışdır. Bildiyimiz kimi, divan ədəbiyyatında geniş şəkildə istifadə edilən nəzirə – bir şairin şeirinə başqa bir şair tərəfindən eyni forma, vəzn, qafiyə və rədiflə yazılan şeir formasıdır. Ustad sənətkar Məhəmməd Füzuli Süruri poeziyasına məxsus orijinal şeir xüsusiyyətlərindən faydalanmış, şairin poeziyasından ən gözəl örnəklər seçərək, özünəməxsus poetik formalardan istifadə etməklə misilsiz şeir nümunələri ərsəyə gətirmişdir. Məqalədə Füzulinin Süruri qəzəlinə yazdığı nəzirə müqayisəli şəkildə təhlil olunur. Eyni zamanda, hər iki sənətkarın qəzəlləri sələf-xələflik münasibətləri baxımından tədqiqata cəlb edilir.
**Açar sözlər:** Füzuli, Süruri, qəzəl, nəzirə, qafiyə

**Məqalə tarixçəsi:** göndərilib – 15.10.2024; qəbul edilib – 31.10.2024

# Mahammad Fuzuli’s nazira to Sururi’s ghazal

**Shafag Maksudova**
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: shafaqtagiyeva@mail.ru

**Abstract.** Sururi is one of the Azerbaijani poets who wrote and created in the 16th century. He became hurufi poet and in his work he mainly benefited from Nasimi's heritage. He also influenced the creativity of many poets. From this point of view, the work of the great author of classical Azerbaijani poetry, Mahammad Fuzuli, attracts attention. The genius poet turned to Sururi poetry in the first periods of his literary activity and wrote a nazira to a number of his ghazals. As we know, nazira, which is widely used in divan literature, is a form of poetry in which one authors's poem is written by another poet with the same form, weight and rhyme. The master artist Mahammad Fuzuli benefited from the original poetry characteristics of Sururi's poetry, selected the most beautiful examples from the his poetry, and created mysterious examples using unique poetic forms. In the article, is analyzed Fuzulı's nazira to Sururı's ghazal, in a comparative way, at the time the ghazals of both authors are comparatively studied in terms of predecessor-successor relations.
**Keywords:** Fuzuli, Sururi, ghazal, nazira, rhyme

**Article history:** received – 15.10.2024; accepted − 31.10.2024

## Giriş / *Introduction*

XVI əsr klassik Azərbaycan poeziyası Məhəmməd Füzulinin adı ilə bağlıdır. Sənətkarın yaratmış olduğu poeziya nümunələrinin hər biri özünəməxsus biçimdə, yüksək şairlik istedadı ilə qələmə alınmışdır. Dörd böyük lirik sənətkar – İmadəddin Nəsimi, Əlişir Nəvai, Şah İsmayıl Xətayi və Məhəmməd Füzuli XV-XVI əsrlər anadilli Azərbaycan poeziyasının inkişafına, dövrün şairlərinin yaradıcılığına güclü təsir etmişlər [3, s.5]. Həqiqətən də, bu, danılmaz bir faktdır ki, XVI əsrdən bu günədək Füzuli poeziyası ədəbiyyatımızın mərkəzində dayanmışdır. Şübhəsiz ki, dahi şairin yaratmış olduğu sehrli sənət dünyasına sələf və müasirlərinin böyük təsiri olmuşdur. Ümumiyyətlə, tarix boyu hər yeni yaranan sənət nümunəsi bu və ya digər şəkildə özündən öncə yaranmış sənət nümunələrindən bəhrələnərək, sonra yazılacaq əsərlər üçün bir mənbə-qaynaq rolunu oynamışdır. Bu baxımdan XV əsrin sonu, XVI əsrin əvvəllərində yaşamış, yaradıcılığı nisbətən az araşdırılmış Azərbaycan şairlərindən olan Sürurinin Füzuli yaradıcılığına təsirini xüsusi qeyd etmək lazımdır. Süruri özü Nəsimi irsindən bəhrələnmiş, hürufi şairi olmuş, bir sıra şairlərin yaradıcılığına da təsir göstərmişdir. Şeirə, sənətə və sənətkarlığa yüksək dəyər verən, sələf və müasirlərinin ədəbi irsinə dərindən bələd olan və özündən sonra zəngin sənət abidəsi qoymuş Məhəmməd Füzuli də yaradıcılığının ilk dönəmlərində Süruri poeziyasına müraciət etmiş və şairin bir çox qəzəllərini örnək alaraq onlara nəzirə yazmışdır. Şairlər arasında sələf-xələflik münasibətlərini genişləndirən, onlarının ustadlarının sənətkarlığını öyrənib kamilləşməsinə kömək edən nəzirə, eləcə də təxmislər, əslində, bir ədəbi yarışdır. Şair nəzirəsində yüksək bədii üslubda dərin hiss, həyəcan və fikirlərin ifadə edildiyi əsəri örnək seçib forma və mənaca onun səviyyəsinə uyğun gələn, bəlkə də, onu üstələyən əsər yazır, bununla da yaradıcılıq yolunda irəliləyir [3, s.26]. Bu baxımdan filologiya elmləri doktoru N.Göyüşovun fikirləri də maraq doğurur. “Orta çağlar sənətində üslub, janr, mövzu, forma, bədii ifadə vasitələri və qəlibləri baxımından vərəsəlik və təkrarlıq, mövcud ənənələrə sədaqət prinsipi vardır” [2, s.46]. Məhz bu səbəbdən, istər mövzu, məzmun, istərsə də rədif və qafiyə baxımından Füzuli poeziyasında Süruri şeirinə məxsus izləri açıq-aydın görmək mümkündür.

## Əsas hissə / *Main part*

Bir sıra tədqiqatlarda Sürurinin Füzuli yaradıcılığına təsirindən söz açılmış, dəyərli fikirlər söylənilmişdir. Akademik Həmid Araslı “Böyük Azərbaycan şairi Füzuli” kitabında Sürurini Nəsimi irsinin varisi, onun ideyaları uğrunda mübarizə aparan, Fəzlullahı bir Allah kimi tanıyıb, hürufiliyin fəlsəfi görüşlərini canlandıran bir sənətkar adlandırmışdır. Şairin yaradıcılığının, əsasən, hürufi fikirlərinin təbliğinə həsr olunduğunu, lakin məhəbbət mövzularında yazdığı qəzəllərində daha artıq müvəffəqiyyət qazandığını, divanında təsadüf etdiyimiz qəzəllərdə onun bir ustad şair, Füzuli və bir sıra müasirlərinə təsir edə bilən sənətkar olduğunu qeyd etmişdir. Həmid Araslı Süruriyə məxsus üç qəzəli yüksək dəyərləndirmiş və Füzulinin yaradıcılığının ilk illərində bu qəzəllərin üçünə də nəzirə yazdığını qeyd etmişdir [1, s.67-68]. Həmin qəzəllərin mətlə beytlərinə nəzər salaq:

*Ta müənbər kakilin xurşidə salmışdır* ***kəmənd***
*Bağlamışdır boynumu zənciri-zülfün* ***bənd-bənd...*** [7, s.69]

***

*Könlümü zülfünlə çak zəncirə,* ***şeydalanmasın,***
*Sinəmi çak et ki, səndən qeyri* ***məvalanmasın...*** [7, s.137]

***

*Bisütuni-qəmdə bərgi-laleyi-həmrayə* ***bax,***
*Pərdəhayi-dideyi-Fərhadi-qəmfərsayə* ***bax.*** [7, s. 67]

Qeyd etmək lazımdır ki, Süruri və Füzuli poeziyasında yer alan “Bax” rədifi ilə yazılan şeir nümunələrinə Nəsimi, Qazi Bürhanəddin, Kişvəri və digər sənətkarların yaradıcılığında da rast gəlmək mümkündür.

Məhəmməd Füzuli Süruri poeziyasına məxsus orijinal şeir xüsusiyyətlərindən faydalanmış, şairin poeziyasından ən gözəl örnəklər seçərək, özünəməxsus poetik formalardan istifadə etməklə əsrarəngiz şeir nümunələri ərsəyə gətirmişdir. Əlbəttə, Süruri poeziyası da özündən öncə yazılmış klassik ənənələri özündə əks etdirmişdir. Paşa Kərimov, haqlı olaraq, Füzulinin Süruri şeirlərinə yazdığı nəzirələrində şairin bir tərəfdən sələfindən öyrəndiyini, onun əsərlərindən sənətkarlıq məktəbi, örnək kimi istifadə etdiyini, digər tərəfdən bu şeirlərə yeni bir ahəngdarlıq, məna dərinliyi, yüksək bədii zövq gətirdiyini göstərir [3, s.27]. Süruri poeziyasına diqqətlə nəzər saldıqca, Füzuli dilinə, ruhuna yaxınlığı duymamaq qeyri-mümkündür. Məhz bu baxımdan Füzuli yaradıcılığında Süruri poeziyasından alınan xeyli örnək-nəzirə nümunələri görmək mümkündür. Fikrimizcə, Füzuli “Sən üzündən aləmi rövşən qılıb saldın niqab”, “Münhərifdir, saqiya, ənduhi-dünyadən mizac”, “Olur qəddim düta eşqin yolunda hər bəla görgəc”, “Seyr qıl, gör kim, gülüstanın nə abü-tabı var”, “Qansı gülşən gülbüni sərvi-xuramanınca var”, “Xəm gədilə ağlaram ol türreyi-tərrarsız”, “Eyş üçün bir türfə mənzildir bahar əyyamı bağ”, “Qəmzəsin sevdin, könül, canın gərəkməzmi sana”, “Şərbəti-ləlin ki, derlər çeşmeyi-heyvan ona” misraları ilə başlanan qəzəllərini yazarkən, Sürurinin “Gül yüzündən çün səba açdı niqab”, “ Afitabi-təl- ətindən rəf olur çün kim niqab,” “Zahida, qılmış quru sevda səni yə si-fərac”, “Qərar etməz könül qaşınla qəmzəndən nişan görgəc”, “Qanğı sünbüldür ki, miskin kakilin tək tabı var”, “Qanğı ay ayineyi-rüxsari-tabanınca var”, “Kakilin fikrində gözüm yaşı getməz ahsız”, “Yandırur xalun xəyali xəttin içün dildə dağ” , “Mən kiməm ta həmdəm olam, ey güli-xəndan, sana”, “Kirpigün, qaşun ki, gəlmiş “əlləməl-Quran” ana” misrasıyla başlanan qəzəllərini örnək götürmüşdür. Füzulinin 32 beytlik “Su” rədifli qəsidəsi Sürurinin 31 beytdən ibarət “Su” qəsidəsinə nəzirə olaraq yazılmışdır [3, s.33].

Ustad sənətkar Füzulinin, Sürurinin “Afitabi-tələtindən rəf olur çün kim niqab” misralı qəzəlinə nəzirə olaraq yazdığı “Sən üzündən aləmi rövşən qılıb saldın niqab” misrasıyla başlayan şeirinin səsləşən məqamlarına diqqət yetirək. İlahi eşq mövzusunda yazılmış hər iki qəzəl yeddi beytdən ibarətdir. Füzuli qəzəli üçün örnək olan Süruri qəzəlinin qafiyələnməsi, “niqab-afitab”, “turab”, “intixab”, “ab”, “şərab”, “hübab”, “ummul-kitab” şəklində olduğu halda, şairin nəzirə olaraq yazdığı cavab qəzəlinin qafiyələnməsi “niqab”, “afitab”, “mahitab”, “gülab”, “hübab”, “ab”, “intixab”, “səvab” şəklindədir. Göründüyü kimi, hər iki qəzəlin ilk beytinin qafiyəsi “niqab – afitab” olub eynilik təşkil edir. Bundan əlavə, Süruri qəzəlinin üçüncü, dördüncü və altıncı beytlərində olan “intixab”, “hübab” və “ab” qafiyələri, Füzuli qəzəlinin dördüncü, beşinci və altıncı beytlərində təkrarlanmışdır. Füzuli Süruri qəzəlində rast gəlmədiyimiz “mahitab”, “gülab”, “səvab” qafiyələrini əlavə olaraq istifadə etmişdir. Qafiyə baxımından səsləşən misralar, bəzən mövzu baxımından bir-birindən fərqlənir. Sürurinin “ab” qafiyəli beytində insan üzündə ilahi əlamətlərin, Quran surələrinin təzahüründən danışıldığı halda, Füzulinin eyni qafiyəli beyti başqa mövzunu əhatə edir. Belə ki, söz ustadı Məhəmməd Füzuli bədii sual poetik fiqurundan istifadə etməklə saqidən, gözəldən əlində tutduğu gümüş badədə olan ləlin qırmızı rəngli şərab, ya ləldən olan üzük qaşı olduğunu soruşur. Hər iki sənətkara məxsus “ab” qafiyəsinin işləndiyi beytlərə diqqət yetirək.

Süruri:

*Arizünlə zülfu qaşun ortasında ruhlarun.*
*Ərşdür üstündə Rəhman surəsi, altında* ***ab.*** [7, s.62]

Füzuli:

*Lə'lgun meydir əlində sağəri-simin ilə.*
*Ya nigini-lə'ldir, rəşki ləbindən oldu* ***ab?*** [5, s.66]

Təzad üzərində qurulmuş “hübab” qafiyəsinin işləndiyi beytlər də məzmunca biri-birilə eynilik təşkil edir.

Süruri:

*Qibleyi-gərdunə bu bəhri-fənadən aqibət,*
*Etimad olurdı baqi olsa ab üzrə* ***hübab.*** [7, s. 62]

Füzuli:

*Yeldə bulmuş buyi-zülfün, suda əksi-arizin*
*Kim, yeli bağrına basıb, suya göz dikmiş* ***hübab.*** [5, s.66]

Füzulinin nəzirə olaraq qələmə aldığı qəzəlin “intixab” qafiyəli beyti də dini mövzuda olub, eyni qafiyəli Süruri qəzəlinin beyti ilə məzmun etibari ilə səsləşir. Beytlərə diqqət yetirək:

Süruri:

*Vəh, nə möciznamədür hüsnün kim, anı əqli-küll,*
*Eyləmiş əsmai-husna dəftəründən* ***intixab.*** [7, s.62]

Füzuli:

*Kilki-qüdrət lövhi sinəmdəsəni qılmış rəqəm,*
*Eyləyib məhbublar məcmuəsindən* ***intixab.*** [5, s. 66]

Yuxarıda da qeyd etdiyimiz kimi, hər iki qəzəlin ortaq cəhəti dini mövzuda yazılmasıdır. Orta çağlarda müsəlman xalqlarının ədəbiyyatında Qurandan istifadə bir ənənə şəklini almışdır. Şərqin böyük sənətkarı – Sənai, Cəlaləddin Rumi, Hafiz və onlarca başqa sənətkarlar öz yaradıcılığında Qurandan geniş şəkildə faydalanmışlar. Azərbaycan ədəbiyyatında Xaqani, Nizami, Nəsimi, Xətayi, Füzuli, Saib Təbrizi, Nəbati və başqaları öz bədii irsində Tanrı kəlamından yetərincə bəhrələnmişlər [4, s.306]. Nəsiminin ardıcılı olmuş, hürufi şairi Süruri poeziyasında da Quran motivləri qabarıq şəkildə özünü göstərir.

Yaradıcılığında, əsasən, Nəsimi irsindən bəhrələnən Sürurinin dini mövzulu, Quran motivlərini özündə cəmləşdirən qəzəlləri Füzulinin poeziyası üçün örnək olmuşdur. Xatırladaq ki, tədqiqata cəlb etdiyimiz və Füzuli qəzəli üçün örnək olmuş Süruri qəzəli Nəsiminin “Şol tamam ayın üzündə çünki rəf oldu niqab” misrasıyla başlayan qəzəlinə nəzirə olaraq yazılmışdır [3, s.27]. Hər üç qəzəlin qafiyələnməsində eynilik vardır. Belə ki, Süruri və Füzuli qəzəlində olduğu kimi, hər iki sənətkarın şeirinə örnək olan Nəsimi qəzəlinin ilk beytinin qafiyələnməsi “niqab-afitab” şəklindədir:

*Şol tamam ayın üzündən çünki rəf* oldu ***niqab,***
*Zülmətin dövranı keçdi, zahir oldu* ***afitab.*** [6, s.22]

Eyni zamanda, hər üç qəzəli birləşdirən məqam onların dini mövzuda yazılmasıdır. Süruri qəzəlində “əsmai-hüsna (Quranda əsmai-hüsna – ən gözəl isimlər, adlar mənasında işlədilir) [3, s.31] “ər-Rəhman “surəsi, cənnət, bismillah-rəhmanir-rəhim (Rəhim və Rəhman Allahın adıyla), mən indəhu ümmül-kitab (Yanında “İlahi” kitabın bilgisi olanlar)” kimi dini motivli ifadələr işləndiyinə görə, Füzulinin də eyni qafiyəli qəzəlində “Vəllahü-ə’ləm bis-səvab (“Doğrusunu Allah daha yaxşı bilər”)” ifadəsi dini məzmunu

ifadə edir. Qeyd etmək lazımdır ki, hər iki sənətkarın (Füzuli və Süruri) qəzəlinə örnək olmuş Nəsiminin eyni qafiyə və mövzulu qəzəlinin səkkizinci beytində "Vəllahü-ə'ləm bis-səvab" ifadəsini görmək mümkündür.

Füzuli:

*Ey Füzuli, hər əməl qılsan xətadır, qeyri-eşq,*
*Budurur mən bildigim, **"vəlləhü ələm bis-səvab"**.* [5, s.66]

Nəsimi:

*Valiyi-əhd oldun, ey Seyyid, zi Fəzli-ləmyəzəl,*
*Gör nə der vali budur,* ***vallahu ə'ləm bissəvab.*** [6, s.22]

Süruri yaradıcılığında din mövzusu əsas yeri tutduğu üçün Füzulinin nəzirə-cavab qəzəllərinin, demək olar ki, böyük hissəsi də eyni mövzunu əhatə edir.

**Nəticə / *Conclusion***

Məhəmməd Füzulinin yaradıcılığının ilk dönəmlərində Süruri poeziyasına müraciət etməsi şairin zəngin ədəbi irsə, orijinal yaradıcılıq üslubuna malik olduğunu bir daha sübut edir. Bu baxımdan Sürurinin istər Nəsimi irsinə daha yaxın olan, orta çağlara xas dini mövzuları əhatə edən, istərsə də eşq, məhəbbət mövzusunda qələmə aldığı qəzəlləri Füzuli poeziyası üçün örnək olmuşdur. Şeirə, sənətə yüksək dəyər verən Füzuli Süruri poeziyasına məxsus özəl nümunələr seçmiş, onlara yeni nəfəs, ruh gətirmiş və bənzərsiz nəzirə nümunələri yaratmışdır.

**Ədəbiyyat / *References***

1. Araslı, H. Böyük Azərbaycan şairi Füzuli. – Bakı: Elm, 2024.
2. Göyüşov, N. Füzulinin sənət və mərifət dünyası. – Tehran: Süruş, 1997.
3. Kərimov, P. Azərbaycan şairi Süruri və onun divanı. – Bakı: Elm, 2020.
4. Quliyeva, M. Şərq poetikasının əsas kateqoriyaları. – Bakı: Maarif, 2010.
5. Məhəmməd F. Əsərləri. Altı clddə, I c. (Tərtib edəni: H.Araslı). – Bakı: Şərq-Qərb, 2005.
6. Nəsimi, İ. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Lider, 2004.
7. Süruri. Divan (Tərtibçi və ön söz müəllifi: P.Kərimov). – Bakı: Elm, 2020.

## Назира Мухаммеда Физули к газели Сурури

**Шафаг Максудова**
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail: shafaqtagiyeva@mail.ru

**Резюме.** Сурури — один из азербайджанских поэтов, писавших и творивших в XVI веке. Он был поэтом-хуруфи и в своем творчестве в основном опирался на наследие Насими. Он также оказал влияние на творчество многих поэтов. С этой точки зрения привлекает внимание творчество великого автора классической азербайджанской поэзии Мухаммеда Физули. Гениальный поэт обратился к поэзии Сурури в первые периоды своей литературной деятельности и написал назиру

к ряду его газелей. Как известно, назира, которая широко используется в диванной литературе – это форма поэзии, в которой на стихотворение одного автора пишется ответ другим поэтом с той же формой, размером, рифмой и радифом. Мастер-творчества Мухаммед Физули воспользовался оригинальными поэтическими характеристиками поэзии Сурури, выбрал самые красивые образцы из его поэзии и создал уникальные примеры, используя свои самобытные поэтические формы. В статье газель Сурури, редифом «нигаб-афтаб», назира на её Физули с этим же редифом, анализируются в сравнительном плане, при этом газели обоих авторов изучаются сравнительно с точки зрения отношений предшественник – современник.
**Ключевые слова:** Физули, Сурури, газель, назира, рифма